*Vasim MƏMMƏDƏLİYEV*
*Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor*

# GÖZƏL ALİM, QAYĞIKEŞ MÜƏLLİM, SƏMİMİ İNSAN

Abuzər müəllimi mən 1959-cü ildən tanıyıram. O zaman mən Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin ərəb şöbəsinin birinci kurs tələbəsi, Abuzər Xələfov isə fakültəmizin kitabxanaçılıq şöbəsinin müəllimi idi. Tələbələrlə daim təmasda olan, onların qayğıları ilə yaşayan, ehtiyacları ilə maraqlanan, imkan daxilində onlara köməklik göstərən Abuzər müəllim hələ o vaxtlar gənclər arasında böyük hörmət qazanmışdı.

Fakültəmizin adlı-sanlı yaşlı müəllimlərinin zəhmindən çəkinən tələbələrin bir çoxu, necə deyərlər, öz dərdlərini Abuzər müəllimə söyləyər, çətin işlərini onun köməyi ilə həll edərdilər. O zaman hələ çox gənc olan Abüzər müəllim özünün sadəliyi, qayğıkeşliyi, canıyananlığı, həssaslığı və səmimiliyi sayəsində bir ağsaqqal mövqeyində idi.

1962-ci ildə Abuzər müəllimin təşəbbüsü və fəal iştirakı ilə kitabxanaçılıq şöbəsi müstəqil fakültəyə çevriləndən sonra bu zəhmətkeş insanın elmi-pedaqoji və təşkilatçılıq fəaliyyəti üçün sözün həqiqi mənasında geniş meydan açıldı. Kitabxana işi sahəsində respublikamızda ilk elmlər namizədi və doktoru olan Abuzər müəllim qısa bir müddətdə bu fakültəni o zamankı SSRİ miqyasında tanınan və etiraf olunan aparıcı tədris müəssisələrindən birinə çevirdi. Cəsarətlə demək olar ki, Azərbaycanda kitabxanaşünaslığın bir elm kimi formalaşması, inkişafı və tərəqqisi, BDU-nun kitabxanaşünaslıq-informasiya fakültəsinin bu gün MDB məkanında ciddi bir elm və tədris müəssisəsi kimi tanınması məhz Abuzər müəllimin adı ilə bağlıdır.

Abuzər müəllim həm də dinimizin qayda-qanunlarını gözəl bilən, onlara riayət edən bir insandır. Abuzər müəllim dinin yarısı olan insafı heç bir zaman əldən verməyən mömin bir müsəlmandır. Mən fakültəmizlə, ümumən universitetlə bağlı bir çox prinsipial məsələlərdə dəfələrlə bunun şahidi olmuşam.

Allahın evini - müqəddəs Kəbəni ziyarət etmiş Abuzər müəllim bir hacı kimi respublika miqyasında keçirilən dini tədbir və mərasimlərdə yaxından iştirak edir, özünün ibrətamiz söhbətləri, gözəl məsləhətləri ilə gəncliyimiz arasında inam, vətənpərvərlik hisslərinin qüvvətlənməsi işində fəal rol oynayır.

2001-ci ilin əvvəllərində mənə Abuzər müəllimlə birlikdə qədim İraq torpağını, Kərbəlada müqəddəs İmam Hüseyn məqbərəsini ziyarət etmək nəsib oldu. Səfər zamanı mən özüm üçün Abuzər müəllimin daha bir müsbət keyfiyyətini - gözəl yol yoldaşı olmasını kəşf etdim.

Abuzər müəllim dostluqda çox möhkəm, pis gündə adamın arxasında duran, bu yolda heç bir çətinlikdən qorxub çəkinməyən mərd bir insandır. Elə bu keyfiyyətlərinə görə də Abuzər müəllim onu tanıyanlar arasında özünə böyük hörmət və ehtiram qazanmışdır. Çətin gündə fikirləşirsən, nə yaxşı ki, Abuzər müəllim kimi bir dostun var və o, sənə bu çətinlikdə həyan durar.

Yetmiş yaşın kürəyini ləyaqətlə yerə vurmuş Abuzər müəllim bu gün ömrünün kamillik çağını yaşayır. Mən bu gözəl alimi, qayğıkeş müəllimi və səmimi insanı anadan olmasının yetmiş illiyi münasibətilə ürəkdən təbrik edir, ona uzun ömür, cansağlığı, şəxsi həyatında və elmi-pedaqoji fəaliyyətində yeni-yeni uğurlar arzulayıram.